# BƏKİR ÇOBANZADƏNİN BƏDİİ NƏSRİ VƏ PUBLİSİSTİKASI



*Mahmud ALLAHMANLI,*
*filologiya elmləri doktoru,*
*professor*

*(Əvvəli ötən saylarımızda)*

Arvadı Zübeydə bacı axşam-sabah ocaq başında gözünü yumar, ağzını açardı. Qonşular, uşaqlar, köyün ərgən qızları haqqında demədiyi şey qoymazdı. Axırda sözü hərləyib-fırlayıb Cəlil ağaya "anladınmı"? Bizim Sələhəddin yaşlı qızının toyunu elədikdən sonra Həccə gedəcək, eşitdinmi" - deyir. Cəlil də "hə" deyə başını tərpədir, orağını alıb biçinə gedirdi.

Bizim xalq üçün də bir az qaranlıq adam lazımdır. Dərhal qırx cür dilmanc tapırlar" (7, 168). Burada Cəlil ağanın dinməzliyi, çubuq çəkməyi, bir də yarımçıq mahnı zümzüməsi və eyni zamanda birinci cahan savaşına getməsi və s. özünə yer alır. Hekayə 1920-ci ildə yazılmışdır və onun ehtiva etdiyi mənzərə çar Rusiyası zamanının ictimai-siyasi mənzərəsini əhatələmək baxımından mühümdür. Cəlil ağanın az danışmağı və onun siyasi rəhbərlik tərəfindən izlənməsi, yazıpozu bilməməsi və s. məqamlar özlüyündə ciddi bir mahiyyətə yüklənir. Müharibəyə gedərkən ailəsinə tövsiyələri, heç kəsə bel bağlamayıb dolanmaya, olanlara, qənaətlə yanaşmağı deməsi, qarğıdalını, buğdanı ehtiyatla işlətməsi məsələlər obrazın xarakterini və həyat təcrübəsini, həm də bu susma müqabilində alt qatda olanları diqqət önünə gətirir. Onun müharibəyə yollanarkən çavuşla aralarında olan insident, tatarlardan ayrılıb başqa millətlərlə döyüşə göndərliməsi, müharibədə göstərdiyi qəhrəmanlıqlar, aldığı medallar və onların arxa cəbhədə yaratdığı təəssürat xarakterin səciyyəvi xüsusiyyətlərini ortaya qoymaq və obraz yaratmada sənətkar bacarığını aydınlaşdırmaq baxımından xüsusi əhəmiyyət kəsb edir.

Hekayədə mahiyyət müəllifin Krım uğrunda savaşmaq söhbətində açılır. Cəlil ağa yenə həmin qaradinməz Cəlil idi. Çubuğunu üç dəfə sümürdükdən sonra ağzından bir laf çıxardı. "Krımdan xəbər alırsınızmı" - deyə soruşdu. Mən də "alırıq Cəlil ağa. Krımda qarşıqlıq var. Tatarlar xanlıq istəyirlər. Krıma getsəniz savaşarsınızmı, - dedim.

Cəlil ağa:

Savaşıb yenə medalmı alacağıq? Bizə yetər, artıq siz savaşın dedi.

-Orden, medal yox, savaşsaq Krımı, bütün Krımı alacağıq, Cəlil ağa!

-Bəli, savaşarıq. Krımı alacaq olsaq, çubuğumu belə buraxaram, qardaşım!- dedi. Bir də qəhqəhə ilə güldü. Bəlkə də illərdən bəri ilk dəfə gülürdü" (7, 171-172). Göründüyü kimi, müəllif Cəlil ağanın şəxsində bütünlükdə Krımın tarixi taleyini və onun yaşadığı sıxıntıları diqqət önünə gətirir. Cəlil ağanın susmağının, çubuq çəkməyinin bütün mahiyyəti ortaya çıxır və həm də aydınlaşır ki, Cəlil ağanın siqarət çəkməsinin, qəm-kədər içərisində susqunluğunun mahiyyətində nələr dayanır. B.Çobanzadə bu hekayə ilə Cəlil ağanın simasında bütünlükdə Krım tatarlarının gülməyən üzünün səbəbini bədii mətndə obrazlaşdırır. Həm də bunun bir tarix kimi hansısa zaman kəsiyində reallaşma faktını diqqət önünə gətirir. Birinci dünya müharibəsinin odundan-alovundan çıxan Cəlilin "bəli savaşarıq" deməsi (Krım uğrunda) xalqın azadlıq düşüncəsinin yaşarlığını diqqət önünə gətirir. Son olaraq müəllifin "bəlkə də illərdən bəri idi ki, ilk dəfə gülürdü" əlavəsi bu ideyanın Cəlil ağada yaratdığı xoş ovqatdır.

B.Çobanzadənin bədii irsi şeir, hekayə və publisistik məqalələrlə səciyyələnir və yaradıcılığının ilkin mərhələsinin hadisəsi olaraq faktlaşır. Təəssüf ki, onun fəaliyyətinin qaynar dövrlərinə aid olacaq bədii nümunələr əldə edilməmişdir. Bəlkə də vardır və otuz yeddinci il repressiyasında məhv edilmişdir. Bəlkə də sonrakı həyatını sırf elmi araşdırmalara kökləmişdir. Bunlar hələ qaranlıq olaraq qalmaqdadır. Ancaq əlimizdə olan örnəklər ədibin bədii-estetik təfəkkür intelleksiyasının əhatələdiyi məzmunu, nələrlə səciyyələnməsini, ədəbi sferada təmas və bağlantılarını aydınlaşdırmaq baxımından mükəmməl qaynaqdır. Hekayələri, poeziyası, publisistikası,folklorşünas kimi fəaliyyəti, ədəbiyyatşünaslıq görüşləri, dilçilik sahəsində əvəzsiz xidmətləri ona olan marağın həmişə artan tendensiyasını sərgiləmiş və sərgiləməkdədir. Geniş kontekstdə, sinxron və diaxron yanaşmalarda B.Çobanzadənin istək və arzuları, çatdırmaq istədiyi məram və ideyalar, apardığı mücadilənin məqsəd və mahiyyəti bütün fəaliyyəti ilə açıqlanır. Hekayələrində qaldırdığı problemlər və ortaya qoyduğu təsəvvür etnosun mənəviyyat məsələlərinə, əxlaq kodeksinin qəlibləşmiş modellərinin yaşamına (təlqininə), bir vətəndaş kimi mücadiləyə və toplum mövcudluğuna köklənmişdir. "İki dərviş", "Qaradinməz Cəlil", "On dörd yaşında", "Uğurlu yollar" və s. bunun örnəyidir. H.S.Seyit Yaxya vurğulayır ki, "B.Çobanzadə mənsur əsərlərini əsasən 1918-1920 sənələrində, özyü də yaş oğanda yazğan idi. Bunın üçyün də o, kolemce buyukcə əsərlərində ayatının ən yaxşı bilqen devrini - balalıqdan gənclikkə keçov ve gencliknen ilk devrlərini təsvir etti ("On dört caşımda", "Oğurlu yollar", "Nuray", "Armanda bir şair"). Bu bizqe yaş edilnin idjadiy mevamını, onun ayat gerçəgine riaet etkenini kostere. Kalqan ekyalerde zaman pek kıska - bir, ya da bir kaç kun.

İkyaelerinin süjetləri adət yüzrə sade, xronoloji prinsipi boyundja kurulalar" (14, 22). Ümumiyyətlə, hekayənin bir forma olaraq ortaya qoyduğu mənzərə özünün ifadə imkanları, təhkiyə texnologiyası, yaradıcı düşüncəsini ümumiləşdirmə baxımından xüsusi önəm daşıyır. Özlüyündə bu formanın qaynağında dayanan nağıl elementləri ona əlavə ovqat qatır və bir növ nağılın yazılı ədəbiyyatda olan modeli kimi nəzər-diqqəti cəlb edir. Hətta yazı mühitində nağıl-hekayə, nağıl-rəvayət, nağıl-əfsanə və s. kimi terminlərin sənətkarların əsərlərində işləkliyi də bir tərəf olaraq özünə yer alır. B.Çobanzadənin hekayələri də zəngin tarixi ənənəyə, etnik ruhun yaradıcılıq təsəvvürünə bağlanmaqla ciddi mahiyyət daşıyır. Bu hekayələrdə bədii təsirin çoxşaxəliliyi, həyat hadisələrinin özünəməxsus şəkildə çatdırılması üsul və modelləri və tərbiyəvi mahiyyətinin geniş imkanlılıq nümayiş etdirə bilməsi bir tərəf olaraq görünür. Məlum olduğu kimi, "söz sənəti geniş və mürəkkəb bədii idrakdır, varlığın canlı və dinamik mənimsənilməsidir, xalq məfkurəsidir. Onun fəal idraki əhəmiyyəti ictimai-siyasi gerçəkliyi, xalqın fikir və düşüncəsini, arzu və amalını dolğun, həyatın özünə bənzər ifadə edə bilməsi ilə bağlıdır. Çünki sənət hərtərəfliyi, varlığı hamarlamağı, insanı özünəməxsusluğundan çıxarmağı sevmir.



...Həyat konkret surətlərdə, mühüm keyfiyyətləri, maraqlı və faydalı cəhətləri ilə göstəriləndə ədəbiyyatın idraki-tərbiyəvi əhəmiyyəti artır, insanda yeni hisslər, yeni düşüncə və arzular oyanır" (9, 23). B.Çobanzadənin ayrı-ayrı hekayələrinin formalaşdırdığı təsəvvür xalq məfkurəsindən gələnlərlə, canlı və təbii həyat boyaları ilə səsləndiyi üçün uğurlu təsir bağışlayır və bir növ həyatın özü və özündə olan, həyatın özündən gələn kimi görünür. Ədibin yaradıcılığında belə bir hal özünü yaradıcı keyfiyyəti olaraq göstərməklə, həm də müəllif orijinallığını faktlaşdırır. Məsələn, "Xırmanda bir şair" hekayəsinin başlanğıc motivinə diqqət yetirmək bunun aydınlığı üçün kifayətdir. "Keçmiş illərin birində Əbdüləziz Molla oxumaq üçün İstanbula getmişdi.

Köyün mollası "Hifzi-halı", elmi-halı Krım müdərrislərindən dibinə qədər öyrəndikdən sonra bir az da İstanbulun fəndini öyrənsən, mərhum Qazi Cəlal kimi güclü bir adam olarsan" demişdi.

Əbdüləziz Molla pasport çıxartdırdı, limanda əşyalarını oğurlatdıraraq paroxoda minib İstanbula getsə də, mədrəsə tətili zamanı əşarçılıq üçün Krıma qayıtması lazım gəldi. Yayın istisində Krıma gələndə fikrini dəyişdirdi. Bir at, bir araba alıb əşar toplamağa pulu yox idi, çox düşünsə, o zaman da yay ötüb keçəcəkdi. Bəs neyləsin? Canaşa Conqar kəndlərindən birinə gedib xırmanda rəncbərlik etməyə qərar verdi" (7, 173). Mətn informasiyası, hadisələrin ümumi axarı başlanğıc epizodda yazıçı qayəsini nağıl formullarından gələn tipik bir yanaşma ilə faktlaşdırır. "Keçmiş illərin biri" oxucunu hansısa tipik olanın məzmununa marağı yönləndirir. Əbdüləziz mollanın oxumaq üçün İstanbula getməsi və bu gedişdə limanda əşyalarını itirməsi hadisəsi hekayə qəhrəmanı haqqında ilkin təsəvvürü formalaşdırır. Geri qayıdarkən rəncbərliyə başlaması və burada onun uğur qazanıb-qazanmayacağı məsələsi müəllif tərəfindən çox incəliklə diqqət önünə gətirilir. Müəmmalı danışmaqda, mətn oxumaqda hər zaman birinci olan, fiziki güc baxımından rəncbərliyə layiq görünmürdü. Burada müəllifin rəncbərliklə bağlı verdiyi informasiya özlüyündə bilgi vermə səciyyəsi ilə diqqətçəkicidi.

Maraqlı məqamlardan birisi hekayə mətnində "qüvvətin əldən deyil, könüldən gəlməsi" məsələsidir. Ona görə də köylü camaatı ona xoş gəldin deyib, dırmığı və yabanı ona uzadır və əlavə edirlər ki, üstünə işarə qoy qarışıq düşməsin. Bunlar hamısı xalqın qaynar həyatını, etnoqrafik dəyərlərini, yaşadığı həyat tərzini aydınlaşdırmaq baxımından əvəzsizdi. Ümumiyyətlə, B.Çobanzadə hekayələri bu baxımdan kifayət qədər zəngin fakturaya yüklənir. Ədibin yaşadığı həyat tərzi, ailədən gələn zəhmətkeşlik və həyatsevərlik, evin qayğıları onun düşüncəsində əvəzsiz izlər buraxmışdır və hekayələrində də bu bir tərəf olaraq özünü göstərir. "Rəncbərlər qaranlığa qədər çalışır, sonra hamamın yanındakı arpa, buğda, yulaf yığınlarının dibinə gedib yeməklərini yeyir, içlərindən taqəti, kefi yerində olanlar tütək çalır, türkü söyləyir, çox yorulanlar isə dərhal çalmalarını başlarına qoyub şirin, röyasız, kabussuz yuxuya dalırdılar. Səhərin sərinliyində Çolpan ulduzu batmadan hamının iş başında olması lazım idi" (7, 173). Yazıçı Əbdüləziz mollanın və Zübeydənin düşüncələri timsalından bir istiqamətdə kəndin qaynar həyatını, məişətini diqqət önünə gətirirsə, digər tərəfdən qəhrəmanın təsəvvürlərində özünə kök salmış müəmmalara aydınlıq gətirməyə çalışır. "Kaş Zübeydə bacının bütün köyün içini-dibini, varını-yoxunu bildiyi kimi mən də bütün dünyanın əslininəslini bilən bir adam olam, soram, soruşduram" deyərdi" qənaətinə diqqəti yönəldir. Cabbar Çələbi, Əbdüləziz, Zeynəb şəxsində müəlifin çatdırmaq istədikləri sırf reallığa və camaatın problemlərinə, kasıb həyat tərzinin nələrlə səciyyələnməsinə hesablanmışdır. Əbdüləzizin şeir yazması ilkin mərhələdə Zeynəb tərəfindən bir qədər fərqli qarşılansa da, ancaq sonda tatarların problemlərinə kökləndiyi baxımından xüsusi rəğbətlə qarşılanır və ona olan münasibəti ortaya qoyur. Bütün bunlar müəllifin bədii təfəkkürünün bir örnəyi olaraq dövrü, mühiti ifadə baxımından tipikdir.

B.Çobanzadənin hekayələri Krımtatarların həyatını, məişətini, adətənənələrini, istək və arzularını öyrənmək baxımından əsaslı material verə bilmək baxımından diqqətəlayiqdir. Portret hekayələr, əhvalat-xarakter hekayələri müəllif mövqeyi və xarakter yaratma bacarığı ilə mükəmməl təsəvvür formalaşdırır. Ümumiyyətlə, "xarakter - müəllif ideyasını oxucu və ictimaiyyətə çatdıran başlıca vasitələrdən biridir. İdeya məhz insan surətləri, xarakterlərində təcəssüm tapır. Xarakterik surətlər birdən-birə, əsərə kortəbii şəkildə gətirilmir.

*(Davamı var)*